**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/6** **12 iyun 2023-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın əsasnamələrinin və 2023-cü il üzrə iş planlarının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın yeni strukturunun və tərkibinin təsdiq edilməsi barədə" 2023-cü il 13 aprel tarixli 355/7 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə Palatanın Şurası yanında komitələrin və komissiyanın əsasnamələrinin və 2023-cü il üzrə iş planlarının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın əsasnamələri və 2023-cü il üzrə iş planları təsdiq edilsin (əlavə olunur):

I. Beynəlxalq Audit Standartları, auditor fəaliyyətinin metodoloji və hüquqi təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə;

IV. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

V. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə;

VI. Etika, mübahisələr və intizam komissiyası.

2. Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın rəhbərlərinə (Namiq Abbaslı, Vəli Rəhimov, Qoşqar Əhmədov, Fəqan Qarayev, Nəcəf Talıbov, Kamil Hüseynov) tapşırılsın ki:

2.1. Əsasnamələrindən irəli gələn vəzifələrin və 2023-cü il üzrə iş planlarında nəzərdə tutulmuş işlərin vaxtında və yüksək keyfiyyətlə icrasını təmin etsinlər;

2.2. 2023-cü ilin yekunu üzrə fəaliyyətləri barədə hesabatı növbəti ilin yanvar ayının 15-dək təqdim etsinlər;

2.3. Auditorlar Palatasının 2023-cü il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin icrasını Palatanın müvafiq struktur bölmələri ilə birlikdə vaxtında və yüksək keyfiyyətlə təmin etsinlər.

3. Bu qərarın, komitələrin və komissiyanın əsasnamələrinin və 2023-cü il üzrə iş planlarının mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**